

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 47 (21.708)

*7 mart 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## *Rəsmi xronika*

Martın 6-da Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində Ürək Mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva mərkəzdə yaradılan şəraitlə tanış olublar.

Ürək Mərkəzi ilə tanış olan dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu səhiyyə müəssisəsinin kollektivi ilə görüşüblər.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış edib.

Respublika Müalicəvi Diaqnostika Mərkəzinin baş həkimi Könül Xəlilova kollektiv adından minnətdarlığını bildirib.

Dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva kollektivə uğurlar arzulayıblar.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Böyük Britaniyanın xarici işlər nazirinin müavini, Birləşmiş Krallığın diplomatik xidmətinin rəhbəri Saymon Makdonaldın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Hindistanın ölkəmizdəki səfiri ilə görüşmüşdür



Martın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana ilə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası haqqında qonağa məlumat vermiş, muxtar respublikada iqtisadiyyatın, xüsusilə kənd təsərrüfatı, sənaye, təhsil, əczaçılıq, rabitə və yeni texnologiyaların inkişafından danışmışdır. Naxçıvandakı ali təhsil müəssisələrində dünyanın 12 ölkəsindən tələbələrin təhsil aldığını bildirən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Hindistan arasında təhsil, əczaçılıq, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırmışdır.

Səmimi qəbula görə minnətdarlıq edən səfir Sanjay Rana Naxçıvanın inkişafının onda böyük təəssürat yaratdığını qeyd etmiş və bura səfərindən məmnunluğunu bildirmişdir. Səfir Naxçıvan Muxtar Respublikasında sənaye və kənd təsərrüfatının inkişaf etdiyini və Hindistanın bu sahələrdə əməkdaşlıq üçün hazır olduğunu vurğulamışdır.

Görüşdə qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Babək Rayon İcra Hakimiyyətinin inzibati binası istifadəyə verilmişdir





Martın 6-da Babək Rayon İcra Hakimiyyətinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binanın açılışını bildirən lenti kəsmişdir.

Tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov demişdir ki, muxtar respublikada aparılan quruculuq işləri Babək rayonunu da əhatə etmişdir. 2016-cı ildə Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi və Nehrəm kəndində yeni məscid binası istifadəyə verilmiş, Xəlilli, Məzrə, Hacıvar və Yarımca kəndlərində kompleks quruculuq işləri aparılmış, Kültəpə və Kərimbəyli kəndlərində yeni suvarma şəbəkəsinin açılışı olmuşdur. Hazırda Babək qəsəbəsində, Nehrəm, Şəkərabad, Şıxmahmud, Xəlilli və Araz kəndlərində içməli su və kanalizasiya xətlərinin, Badaşqan kəndində isə içməli su sisteminin tikintisi davam etdirilir. Son illər Babək qəsəbəsində idarə, müəssisə və təşkilatlar üçün yeni inzibati binalar tikilib istifadəyə verilmişdir. Babək Rayon İcra Hakimiyyətinin inzibati binasının yenidən qurulması da aparılan quruculuq işlərinin daha bir ifadəsidir. Rasim Hüseynov Babək rayonunun inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə rayon əhalisi adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Babək rayonu 1978-ci ildə – xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə yaradılmışdır. Həmin dövrdə Naxçıvan rayonunun tərkibində olan bu ərazilərin idarə olunmasında və inkişafında çətinliklər vardı. Bu da yeni rayonun yaradılmasını zəruri edirdi. Babək rayonu yarandıqdan sonra bu ərazilərdə idarəetmə formalaşdı, kənd təsərrüfatı inkişaf etdirildi, rayon uğurlu inkişaf yolu keçdi. Bu gün Babək ölkəmizin, eləcə də muxtar respublikanın inkişaf edən rayonlarındandır.

Ali Məclisin Sədri Babək rayonunun inkişafında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Qeyd olunmuşdur ki, Babək rayonu öz ətrafında 1 qəsəbə və 35 kəndi birləşdirir. Rayonun əksər kəndlərində kompleks quruculuq işləri aparılmış, bu kəndlər müasir yaşayış məntəqələrinə çevrilmişdir. Kəndlərdə elektrik enerjisi və təbii qaz daimi verilir, rabitə və internet xidmətləri göstərilir, müasir məktəblər, idarəetmə qurumları üçün inzibati binalar, səhiyyə müəssisələri və xidmət sahələri tikilərək əhalinin istifadəsinə verilir. Rayonun kəndlərində görülən bu işlər və yaradılan şərait müasir Azərbaycan kəndinin nümunəsidir.

*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri demişdir: Babək Rayon İcra Hakimiyyətinin əvvəlki binası işçilərin yerləşməsi və idarəetmənin təşkili baxımından tələblərə cavab vermirdi. Ona görə də binada yenidənqurma işləri aparılaraq əlavə bir mərtəbə artırıldı, 38 müasir iş otağı yaradılaraq kollektivin istifadəsinə verildi. Bu gün Babək Rayon İcra Hakimiyyətinin qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri də müasir binalarda yerləşir. Müasir şərait isə yaxşı işin əsasını təşkil edir. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə edərək əhaliyə nümunəvi xidmət göstərməli, vətəndaşların müraciətləri yerində və vaxtında həll olunmalı, tikilənlər, qurulanlar qorunub saxlanmalıdır.

Ali Məclisin Sədri kollektivin Babək rayonunun inkişafı sahəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini bildirmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 5 mərtəbədən ibarət olan binanın qarşısında ümummilli liderimiz Heydər Əliyevin abidəsi vardır. Binada 50 yerlik müşavirə zalı, 38 iş otağı və 7 yardımçı otaq istifadəyə verilib. Burada əməkdaşlar üçün nümunəvi iş şəraiti yaradılmışdır. İş otaqları müasir tələblər səviyyəsində qurulmuş, kompüterlər qoyulmuşdur. Babək qəsəbə inzibati ərazi dairəsi üçün də binanın birinci mərtəbəsində 3 otaq ayrılmışdır.

Binanın fasadı Naxçıvan memarlıq üslubunda üzlənmiş, həyətdə geniş abadlıq işləri aparılmış, yeməkxana və qaraj istifadəyə verilmiş, gülkarlıqlar salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvanda İranın Qərbi Azərbaycan Vilayətində istehsal olunan ərzaq məhsulları və əl işlərinin sərgi-satışı keçirilir








Martın 5-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin rəsmi şəxsləri və iş adamları əvvəlcə Naxçıvan Biznes Mərkəzində olmuş, nümayəndə heyətlərinin iştirakı ilə görüş keçirilmişdir. Sonra qonaqlar Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda nümayiş olunan məhsullara baxmış, onlara muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri haqqında məlumat verilmişdir.

Həmin gün Naxçıvan şəhərindəki Mərkəzi bazarda İranda istehsal edilən ərzaq məhsulları və əl işlərinin sərgi-satışının açılışı olmuşdur. Əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək tədbir iştirakçılarını və qonaqları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından salamlamış, sərginin açılışı münasibətilə onları təbrik etmişdir. Qeyd olunmuşdur ki, son illər nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, birgə görüşlərin, biznes forumların və sərgi satışların təşkili artıq ənənə halını almışdır. Bu da Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında qarşılıqlı ticarət-iqtisadi əlaqələrin inkişafına təkan vermişdir.

Qeyd edilmişdir ki, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsində hər iki ölkənin sahibkarlarının xidmətləri vardır. Bu əlaqələr daha da inkişaf edəcəkdir. Çünki hər iki ölkə rəhbərinin əlaqələrin inkişafına göstərdikləri böyük dəstək buna geniş imkanlar yaradır.

Ali Məclis Sədrinin birinci müavini sərginin təşkilatçılarına təşəkkürünü bildirmiş və tədbir iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir.

Tədbirdə İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom və Qərbi Azərbaycan Vilayəti valisinin iqtisadi məsələlər üzrə müavini Nadir Səfərzadə çıxış edərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasındakı əlaqələrin getdikcə daha da genişləndirilməsini yüksək qiymətləndirmişlər.

Sonra sərginin açılışını bildirən lent kəsilmişdir.

Sərgi martın 12-dək davam edəcəkdir.

**"Şərq qapısı"**

*Qədim əcdadlarımızın, ata-babalarımızın bizə əmanət olaraq qoyduqları milli-mənəvi dəyərlərimizdən biri də Novruz bayramıdır. Hələ Novruz bayramından əvvəl qışın ilk vaxtlarından başlayaraq qırx gün müddətində Böyük çillə, ondan sonrakı 20 gündə isə Kiçik çillə davam edir. Xalq təqviminə görə Kiçik çillə fevral ayının 19-u öz ömrünü başa vurub, yerini "Boz aya" verir. Boz ay xalq arasında həm də "alaçalpov", "çillə beçə", "ağlar-gülər" və sair adlarla bilinməkdədir. Boz ay Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə – martın 21-nə qədər olan dövrü əhatə edir. Ayın adının bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən günəşli – bir sözlə, dəyişkən olması ilə bağlıdır. Xalq arasında Boz ay haqqında bir deyim var: "Boz ay bozara-bozara keçər". Bu daha çox Boz ayın sərtliyi və havaların bozarmasına işarədir. Kiçik çillə ilə Novruz arasındakı Boz ay qışdan yaza keçid dövrünü əks etdirir. Xalq arasında Boz aya bayram ayı da deyilməkdədir. Müxtəlif adlarla bilinən Boz ayın dörd çərşənbəsi çillə çıxartmanı əhatə edir. Azərbaycanın ən qədim yaşayış məskəni olan Naxçıvanda çərşənbələr bu ardıcıllıqla adlandırılmışdır:* ***SU-TORPAQ-YEL-OD.***

## Bir daha çərşənbələr haqqında

Folklor yaddaşımızda insanın yaradılışının dörd mərhələdə həyata keçirilməsi düşüncəsinə rast gəlirik. Yaradan əvvəlcə suyu götürdü, onu torpaqla qarışdırıb bir insan modeli hazırladı, sonra ona ruh (nəfəs, hava) verdi, ən sonda isə onu istiliklə təmin etdi (Günəş sistemində müəyyən bir məkanda məskunlaşdırdı). Beləliklə də İlahi tərəfindən həyata keçirilən yaradılış ardıcıllığı çərşənbələrdə qeyd olunaraq Yaradana minnətdarlıq hissi kimi ortaya çıxmışdır.

Ən qədim türk dastanı olan "Yaradılış" dastanında da bu ardıcıllıqla qarşılaşırıq. Bildiyimiz kimi, "Yaradılış" dünyanın yaranmasından bəhs edən ilk dastan nümunəsidir. Bu dastanın bir çox variantı mövcuddur. Həmin variantların birində deyilir ki, başlanğıcda hər yer sularla örtülü idi. Tanrı Ülgən quşa dönərək suların üstü ilə uçurdu. Qonmağa bir yer tapmır və bu zaman göydən gələn səs ona Suyun içindən çıxan bir daşa (TORPAQ) qonmasını söyləyər. Ülgən bu daşa qonandan sonra yerin və göyün yaradılmasını düşünür. Bunu necə edəcəyini bilmir. Bu vaxt suların içindən dişi ruh (Ruh-Nəfəs-Yel) Ağ Ana Ülgənə yaradılışı necə həyata keçirməyi izah edər. O da özünə bənzəyən bir Ərlik-ODU yaradır.

Qədim Şumer əfsanələrinə görə öncə tanrılar mövcud idi, bütün dünya isə dərin sularla örtülmüşdü. Tanrıça Namu dərin sulardan palçıq götürüb ona özlərinə oxşar şəkildə forma verir, sonra nəfəs püləyir. Burda su çəkiləndən sonra torpaq götürüldüyünə rast gəlirik. Deməli, ardıcıllıqla sudan sonra torpaq gəlir. Sonra nəfəs (yəni yel) püləyir. Sonra isə od-istilik verir.

Bu məsələ ilə bağlı başqa bir məqama da diqqəti çəkmək istərdik. Bəşəriyyətin ikinci atası adlandırılan Nuh Peyğəmbərin quruya çıxması, yenidən canlıların (yenə canlanma, həyata qayıdış) münbit yaşayış şəraiti ilə təmin olunması prosesinin ardıcıllığı Naxçıvanda çərşənbələrin qeyd olunma ardıcıllığını özündə əks etdirən məqamlardan biridir. Belə ki, Nuh Peyğəmbərin hazırladığı gəmi suyun üzərində idi. Dünyanın hər tərəfini su almışdı. Həyat başlanğıcını Sudan götürür. Bu yerdə "Su həyatdır" atalar sözünü xatırlamamaq olmur. Su çəkildikdə isə Gəmi qayaya toxunur, torpağa oturur. İnsanlar, canlılar torpağa ayaq basır. Bu yerdə bir məqamı unutmamalıyıq. Nuhun gəmisi Gəmiqayanın zirvəsində ilk olaraq Torpaqla – Yerlə təmas edir. Təbii ki, yüksəklikdə də hava hərəkətli olur. Bunun nəticəsi olaraq Suyun çəkilməsi ilə torpağa ayaqbasan insanı yel vurur. Külək əsir. Küləyi hiss edən, soyuqdan qorunmaq istəyən insan Günəşə sığınır, qızınmağa çalışır və Od qalayır. Bu odun ətrafında uzun sürən aralıqdan sonra yenidən canlı aləmə qovuşmağın sevincini yaşayır. Bunlar isə xüsusi mərasimlə qeyd edilir.

Çərşənbələr öz müqəddəslik mahiyyətində də təbiətin canlanması ardıcıllığını hifz edir. Belə ki, öz sərt soyuğu ilə "asıb-kəsən" Kiçik çillə başa çatandan sonra təbiətdə mülayimləşmə başlayır. Bu zaman ilk olaraq Su qızmağa, əriməyə başlayır. Bundan sonra Torpaq isinir. Torpağın isinməsindən sonra soyuq və isti havanın qarşılıqlı mübadiləsi prosesi baş verir. Təbiətdə coğrafi hadisələrdən də bizə bəlli olan Soyuq və İsti hava axınının yerdəyişməsindən Külək-Yel əmələ gəlir. Yəni yeni, isti hava axını – Külək havanı qızdırır. Ən sonda isə qeyd olunan əvvəlki ünsürlərin qızmasından sonra Günəşin – böyük Od kürəciyinin hərarəti tamamilə hiss edilir. İnsanlar və təbiət, canlı və cansız bütün varlıqlar Odu – istini duyurlar. Beləliklə, ulu əcdadlarımızın inam sistemi formalaşmış, Suya, Torpağa, Yelə, Oda inam meydana gəlmiş, bu ünsürlərin hər birinə aid müxtəlif ayinlər, mərasimlər təşkil olunmuş, beləliklə də bu gün qeyd etdiyimiz dörd çərşənbə yaranmışdır.

Bəs, görəsən, Çərşənbə ənənələri nədən ibarətdir?

***Boz ayın ilk çərşənbəsi xalq arasında "Əzəl çərşənbə" kimi tanınan Su çərşənbəsidir.*** Azərbaycan xalqının inancına görə, yazın nəfəsi öncə suya toxunur. Xalq arasında deyilir ki, bu gündən sulara ixtiyar verilir. Buna görə də bu çərşənbə suyun təzələnməsi ilə əlaqədardır. İnama görə, həmin çərşənbədə su oyanır, saflaşır, təzələnir. Elə ki isti, hərarət suya düşdü, suların donu açılır. Topladığımız etnoqrafik çöl materiallarından görünür ki, Su çərşənbəsində su üstə gedərlər, ancaq su gətirməzlər. Su üstə gedib oradan su götürmək adətinə ilin axır çərşənbəsinin səhəri əməl edərlər. Xalq arasında olan inama görə, həmin gün sudan nə istəsən həyata keçər. Bununla əlaqəli bir deyim də mövcuddur:

*Su üstə, Novruz üstə,*
*Bəxtini sudan istə.*

El-obada Su çərşənbəsi ərəfəsində su arxlarını təmizləyər, bulaqların, çeşmələrin gözü açılar, ovdanlar, hovuzlar təmizlənər, bərpa işləri aparılardı.

***Boz ayın ikinci çərşənbəsi Torpaq çərşənbəsidir.*** Bu çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması baş verir ki, bu, Novruzun xəbəri kimi başa düşülür. Torpaq oyanır və artıq əkinə hazır olduğunu göstərir. El arasında deyərlər ki, "Cəmrə, yəni istilik torpağa düşür". Torpaqdan buxar qalxır, deməli, torpaq qızmışdır, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yavaş-yavaş əkilməlidir. Xalq arasında olan inama görə, bolluq, bərəkət rəmzi olaraq Torpaq çərşənbəsində torpağa buğdadan toxum qoyulmalıdır. Evlərdə səməni elə bu çərşənbədən qoyulmalıdır ki, axır çərşənbəyə hazır olsun.

Ədəbiyyat materiallarında qeyd edilir ki, Erkən Orta əsrlərdə Azərbaycanda əkinçiliklə əlaqəli "İsfəndəkan" adlı bayram keçirirdilər. Sonralar bu bayram Torpaq çərşənbəsi adlandırıldı. Bu çərşənbədən başlayaraq artıq çay, bulaq kənarlarında yarpız görünməyə başlayır. Həyət-bacada əsaslı işlərə başlanılır. Bağ-bağata əl gəzdirilir, səliqə-sahman yaradılır. Ağacların qol-budağı budanır, artıq nə varsa yandırılır, ağacların dibi bellənir.

Torpaq insanları yaşayış üçün zəruri olan qida ilə təmin edən real həyati varlıqdır. Torpaq deyər "öldür məni, dirildim səni". Bu tipli saysız-hesabsız folklor örnəklərimizin də məğzində torpağın bir yaradıcı ünsür kimi insanın yaşayışı və fəaliyyəti üçün əsas stimulverici güc olduğu dayanır.

*Ardı 3-cü səhifədə*



***Xalq təqviminə uyğun olaraq Boz ayın üçüncü çərşənbəsi Yel çərşənbəsidir.*** Yel çərşənbəsində küləklər əsməyə başlayır və gün ərzində bir neçə dəfə dəyişir. Bu dəyişikliklər havanın təmizlənməsi kimi qəbul edilir. Bu dövrdə əsən küləyə "vədə yeli" deyilir.

Novruz bayramına 17 gün qalmış külək əsməyə başlayır. Bu küləyin əsməsi təmizlik işlərinə başlamağın (bayram təmizliyi) vaxtını bildirir. Bu yerdə haşiyə çıxaraq qeyd edək ki, Naxçıvanın müxtəlif bölgələrində, xüsusilə Şərurda çərşənbələrin qeyd olunması ilə bağlı tarixən bəzi adətlər mövcud olmuşdur. Belə ki, insanlar qış başlanmasına yaxın həyətin müəyyən yerində torpağı qazaraq qurumuş ağacları (buna el arasında çır-çırpı deyilir) ora tökərmişlər. Bundan sonra evdən çıxan tullantılar qış boyu həmin yerə yığılardı. İsti olduğu üçün qışda həyat-bacadakı həşəratlar bu çalada toplaşar və evlərə dolmazdılar. Yel çərşənbəsində əriyən qarın altından çıxan tullantılar da yığılaraq həyətdə qazılan çaladakı ağacların üstünə atılar və sonra yandırılarmış. Bu zaman zərərverici həşəratlar yanaraq məhv olar, həyət-baca təmizlənərdi. Əslində, bu adət Yel çərşənbəsində bayrama (Novruz) hazırlıq, yəni səliqə-sahman yaratmaq məqsədilə icra olunurdu.

Bəzi tədqiqatçılar yazır ki, bu külək ilin müəyyən dövründə müntəzəm əsdiyindən vədə (yəni gözlənilən vaxtda əsən) küləyin adını almışdır. Xalq arasında vədə yelinə həm də "ələyəz yeli" (ələyəz ot adıdır) deyilir. Bir deyimə görə, "ələyəz yeli" qalxdısa, yaz gələr. Ələyəz yelinin hansı istiqamətə əsdiyi bilinməz. Buna uyğun olaraq Naxçıvanda sözü, fikri, əqidəsi bilinməyən adama "ələyəz yelidir, hərdən bir tərəfə əsir", – deyirlər.

Digər bir deyimə görə, "vədə yeli" yazın yelidir. Elə ki əsməyə başladı, ağacların oyanmasına, köçəri quşların gəlməsinə köməklik göstərər. Köçəri quşlar (leylək, durna, qaranquş) yazın ilk müjdəçiləri hesab edilir. Bu quşların gəlməsi ilə əsl yaz başlayar.

***Boz ayın dördüncü, sonuncu çərşənbəsi xalq arasında "ilin axır çərşənbəsi" kimi bilinən Od çərşənbəsidir.*** Od çərşənbəsi əski görüşlərlə bağlı olub, Günəşə, oda, odu qoruyub saxlamaq inamına tapınma, od kultu ilə əlaqəli yaranmışdır. Hələ çox-çox əvvəllər insanlar təbiəti canlandıran, torpağı isidən Günəşin yerdəki rəmzi kimi odu müqəddəsləşdirmişlər. Əski zamanlarda insanlarda belə bir inam yaranmışdır ki, onlar odu nə qədər əzizləsələr, oxşasalar təbiət o qədər tez qızınar, isinər, adamlara xoşbəxtlik gətirər. Günəşi əzizləmə mənasında Herodot yazır ki, qədim türk tayfalarından olan massagetlər Günəşi yeganə Allah hesab etməklə ona qurban kəsərdilər. Günəş və od üçün kəsilən qurbanlıq at ağ və ya qırmızı rəngdə olsaydı, adamlara xoşbəxtlik gətirərdi.

Topladığımız etnoqrafik materiallara görə, Od çərşənbəsində yandırılan odun külünü üç yerə səpib mal-qaranı, qoyun-quzunu külün üzərindən keçirərdilər. İnanca görə, Od çərşənbəsində yanan odun külünü kom qoymazdılar. Bu hal evə uğur gətirməzdi. Payız kəndində yaşlıların verdiyi məlumata görə həmin külü axar suya axıdardılar.

Bu çərşənbədə təsərrüfat sahələrində müəyyən işlərə başlanar. İlk olaraq aran bölgələrdə ağaclara qulluq edilir, birillik heyvanlar örüş sahələrinə çıxarılır. Bir sözlə, istiliyin qorunması, istiliyin yenidən qayıdıb torpağa hopması, torpaqda istiliyin başlanması və nəhayət, əmək mövsümünün başlanması üçün torpağı məhsul əkininə hazırlıq ənənələri, ritualları bu çərşənbədə əksini tapır. Od çərşənbəsi, ümumilikdə, Günəş, od, atəş inamı ilə bağlı yaddaşlarda qalan bir çox nəğmə, etiqad, mərasim və rəvayətlərin mənbəyidir.

Ancaq bir məsələni də vurğulamaq lazımdır ki, Naxçıvanda odla bağlı adət və inanc sistemlərinə, od kultuna daha çox Axır çərşənbədə rast gəlinir. Yalnız bu çərşənbədə tonqallar çatılır, atəşfəşanlıq edilir. Tonqalın ətrafına toplaşan insanlar odun üzərindən atlanmaqla köhnə ildən qalan əzablarını, ağırlıqlarını sanki arxada qoyur və yeni ildə xoşbəxt, firavan həyat yaşayacaqlarına inanırlar. Yandırılmış odun üstündən "ağırlığım, uğurluğum, dərdim, bəlam bu oda tökülsün", – deyib tullanarlar. İnama görə, odun üstündən tullanan şəxs ilboyu xəstələnməz, dərd-qəm ondan uzaq durar. Xəstə heyvanları, yeni doğulmuş quzuları odun üstündən keçirmək kimi adətlər mövcud olmuşdur. Yandırılmış odun külünü götürüb bolluq, bərəkət rəmzi olaraq əkin sahələrinə, toyuq-cücələrin üstünə, mal-heyvanın altına səpərlər. Şər qüvvələrdən qorunmaq, onları qovmaq üçün ilaxır tonqalının külündən evin dörd küncünə qoyarlar. Kəngərli rayonunun bəzi kəndlərində odun külünün üstünü torpaqla örtərdilər ki, külək (odun külünə bərəkət kimi baxardılar) dağıtmasın.

Od xalqımızın and yeri, inanc yeri olmuşdur. "Od haqqı", "ocaq haqqı", "ocağa and olsun", "ocağın nurlu olsun" demiş babalarımız, ağbirçək nənələrimiz. Düşməni qarğıyanda ilk öncə ocağına üz tutmuş, "ocağın sönsün", "ocağın dağılsın", "içinə od düşsün" demişlər. Evə, ailəyə bədbəxtlik üz verəndə "ocağı qaraldı", "ocağı söndü" deyərlər. Bundan əlavə, naxələf adama "Baba ocağını kor qoydu" deyərlər. Elimizdə-obamızda qədim ibadət yerlərini də "ocaq" saymışlar. Bəzi ağsaqqallara "ocaq kimi adam" demişlər ululamımız. Od Azərbaycanımızın döyünən ürəyi olmuş, yanan qəlbinə çevrilmişdi. Yurdumuzun adı da "Odlar yurdu" kimi adlandırılmışdır.

Naxçıvanda "İlaxır çərşənbə" özündən əvvəlki üç çərşənbədən yüksəkdə duran, ən təmtəraqlı qeyd edilən mərasimlərdən biridir. Topladığımız etnoqrafik materiallara görə, axır çərşənbəyə hazırlıq Kiçik çillədən sonra başlanır. İlk növbədə həyət-baca təmizlənir, evlər səliqə-sahmana salınır. El arasında buna "külə-külə" də deyərlər. Həmin gün yaxın qohumlar yaslı olan qohumların evlərinə gedib, ağbirçəklərdən icazə alıb onların evlərini təmizləyər, əyinlərindəki yas paltarlarını çıxarıb, bayram libası geyindirərlər. Bu cür evlərdə bütün əşyaların yeri dəyişdirilməlidir ki, evdə "kəsavət" qalmasın. Bayram ayında bir sıra işlərlə yanaşı, yazlarla işlərinə də hazırlıq görülür.

İlaxır çərşənbədə əsas adətlərdən biri həmin gün od qalanmasıdır. El dili ilə desək, "qaş qaralan vaxtı" evlərin həyətində tonqal qalanar, bütün ailə odun ətrafında toplaşar. İlaxır çərşənbəsində yandırılan tonqalın tüstüsü arana gedərsə aranda, dağa gedərsə dağlıq ərazidə, əgər düz yuxarı qalxarsa, hər tərəfdə həmin il bolluq olacağına inanırlar. Axır çərşənbədə hər bir ailə çalışır ki, yandırdığı tonqalın alovu hündürə qalxsın. Bunun ailəyə uğur gətirəcəyinə inanırlar.

Axır çərşənbə günündə mərhumları yad etmək üçün qəbiristanlığa getmək adəti də vardır. Xalq arasında bu adət "Ata-baba günü", "Arafa" (köhnə illə təzə ilin arası) adlanır. Bu adətə görə hər kəs öz ölmüş əcdadlarının ruhlarını yad edər və onlara Quran oxutdurar. Çərşənbə axşamı qohumlar, qonşular yaslı evlərə gedib onlar üçün də "çərşənbə odu"nu yandırar, beləcə, onları yasdan çıxararlar. Çünki yeni ilə yaslı girmək uğurlu sayılmaz.

Axır çərşənbədə hər kəsin evində plov süzülür, ləziz yeməklər hazırlanır, xonça bəzədilir. Bayramda süfrələri paxlavasız, halvasız, şəkərburasız, badamburasız təsəvvür etmək mümkün deyil. "Qarabayram" keçirməli olan evlərdə isə şorqoğalı, umac halvası hazırlayardılar. Axır çərşənbə yeməyini bir az erkən bişirirlər, çünki bəzi yaxın adamlara, əsasən ailənin evli qız və oğlanlarına pay göndərirlər.

Kəngərli rayonunun Qarabağlar, Qıvraq, Yurdçu kəndlərində Novruz aşının düyüsündən götürüb ağacların koğuşuna qoyardılar ki, barlı olsun. Oxşar inama görə, aşın yağından bar verməyən ağacların budaqlarına da sürtərdilər. Şadlıq, yasdan çıxma rəmzi olaraq bar verməyən ağacların dibinə həmin günü xına basdırmaq, qırmızı parça bağlamaq adəti də mövcuddur.

Bayram ayından başlayaraq keçirilən axır çərşənbədə ən maraqlı adətlərdən biri də yumurta döyüşdürülməsidir. Yumurta döyüşdürülməsi zamanı kimin yumurtası qırılarsa, o, öz yumurtasını qarşı tərəfə verər. Əsas maraqlı adətlərdən biri də həmin gündə yumurtaların qırmızı rəngə boyadılması, insanların bir-birini boyanmış qırmızı yumurta ilə təbrik etməsidir. Topladığımız materiallara görə, yumurta verilməsi ev sahibinə və ailə üzvlərinə cansağlığı diləməkdir, çünki yumurta artıb çoxalmaq, həyatın əmələ gəlməsi kimi başa düşülür. Bəzi türk adətlərində mövcud olan inama görə, yaz bayramında yumurtanın qabığı yerə düşməyincə yaz gəlməz.

Axır çərşənbədə od yandırdıqdan sonra hər kəs süfrə başında əyləşir. Xalq arasında olan inama görə, həmin gün evində olmayan yeddi il evində olmaz. Axşam düşdükdə oğlan uşaqları evlərə papaq, torba atar, qızlar isə "qulaq falı"na çıxar, niyyət edib qapı pusarlar. Ev yiyələri də çalışarlar ki, həmin günü xoş sözlər danışsınlar.

Xalq arasında keçirilən ən maraqlı adətlərdən biri də axır çərşənbənin səhəri günü Günəş çıxmamışdan "su üstə" getmək adətidir. Bəzi yerlərdə bu adət "novbaşı" adlanır. İlk növbədə insanlar səhər tezdən bulaq kənarına, nov başına gedər, suyun üstündən tullanarlar. Su üstündən tullananda "Allahım, ruzimizi bol eylə" deyib, suya buğda atarlar. Şahbuz rayonunun bəzi kəndlərində isə "İlahi, qohumların, ailəmizin ağzını şirin eylə" deyib, suya kişmiş atarlar. Əl-üzlərini yuyar, sudan bir az da içərlər. İnama görə, bu su dərdlərin dərmanıdır, içən xəstələr şəfa tapar. "Çərşənbə suyu"ndan insanlar arasında bir-birinin üstünə çiləmə adəti də (çiləşmə) icra olunur.

Bulaq üstünə gedən qız-gəlinlər bulağın gözündən əl atıb yeddi daş götürərlər. Şərur rayonunda isə "övlad, dövlət, bərəkət" deyib, əyilib sudan üç daş götürərlər. Götürülən daşları yağ küpələrinə, unluqlara, pul kisələrinə qoyardılar ki, bərəkətli olsun. Başqa bir adətə görə isə çörçöp yığıb, mal-qaranın, bişirilən südün altında yandırardılar ki, ruzibərəkətli olsun.

Bu adətlərdə əcdadlarımızın Su, Torpaq, Külək, Od kultuna tapınmasının izləri açıq-aydın görünür. Çərşənbələrdə əzizlənən bu müqəddəs ünsürlərə Azərbaycan türkləri və bütün Türk dünyası qədimdən etiqad etmiş və inanmışlar.

*Xalqımıza üzümüzü tutub Suyunuz aydın, Torpağınız bərəkətli, Küləyiniz hərəkətli, Odunuz hərarətli olsun, – deyirik.*

**Elxan MƏMMƏDOV**
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri***

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri***

## Elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktik konfrans keçirilib



***"Naxçıvan" Universitetində bu ali təhsil ocağının professor-müəllim heyətinin 2016-cı ildə yerinə yetirdikləri elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktik konfrans keçirilib.***

Konfransın plenar iclasını giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, elmi-texniki potensialın, tədqiqatçıların təkrar istehsalını təmin edən elm və təhsil strukturlarının bir-biri ilə qarşılıqlı əlaqəsi, təhsilin elmlə sintezi olmadan müasir təhsil inkişaf edə bilməz. Bu proses eyni zamanda ali məktəblərin pedaqoji potensialını inkişaf etdirməyə, tədris proqram və kursların məzmununu, təhsil texnologiyalarını və metodlarını yeniləşdirməyə imkan verir.

Rektor son illər ali təhsil ocağında həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, təhsilin keyfiyyətində əldə olunmuş nailiyyətlərlə yanaşı, "Naxçıvan" Universitetində elm sahəsində də müsbət dəyişikliklər baş verib. Belə ki, son dövrlərdə elmi-tədqiqat işlərinin aktuallığına, yeniliyinə, praktik əhəmiyyətinə xüsusi önəm verilib, onların nəticələri tədris prosesində geniş tətbiq olunub.

Sonra universitetin İqtisadiyyat kafedrasının dosenti Əli Cabbarovun "Turizm marşrutları və turizm xidmətlərində onların əhəmiyyəti", Xarici dillər kafedrasının müdiri Anara Nəsirlinin "İngilis ədəbiyyatında XIX əsr ədəbiyyatının mahiyyəti və əhatə etdiyi dövrlər tədqiqat obyekti kimi", professor Sədaqət Həsənovanın "Əbülfəz Muxtaroğlunun dil, üslub xüsusiyyətləri" mövzularında məruzələri dinlənilib.

Konfrans öz işini "Riyaziyyat və informatika", "Xarici dillər", "İdarəetmə", "Təbiət elmləri", "İqtisadiyyat", "Pedaqogika və psixologiya", "Ümumi tarix", "Azərbaycan dili və ədəbiyyat" bölmələri üzrə davam etdirib.

**Nuray ƏSGƏROVA**

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir.***

## Orta tibb işçilərinin sertifikasiya imtahanı olub

Sertifikasiya imtahanlarının növbəti mərhələsində muxtar respublikanın səhiyyə müəssisələrində mama ixtisası üzrə çalışan orta tibb işçiləri on gün ərzində öz bilik və bacarıqlarını sınayıblar.

Muxtar respublikanın səhiyyə sistemində sertifikasiya imtahanları proqrama uyğun aparılıb. Bu məqsədlə Naxçıvan Muxtar Respublika Xəstəxanasının elektron zalından istifadə edilib. Elektron zalda server xidməti ilə birgə 31 kompüter qurulub. Kompüter proqrama uyğun olaraq ümumi sual bankından 2 müxtəlif variantda 60 test sualını və 5 klinik tapşırıq sualını seçir. Bu, imtahanların aşkarlıq və şəffaflıq şəraitində keçirilməsini təmin edir. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmasına, tibb peşəsinin məsuliyyətini daha dərindən dərk etməsinə imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən suallar tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 60 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə təqdim edilib, eyni zamanda yazılı olmaqla müsahibə mərhələsinin də sualları paylanılıb. Cavablandırma qaydaları izah edilib. Məxfiliyin gözlənilməsi məqsədilə müsahibə sual kartlarında imtahan verənin adı, soyadı yox, kod nömrəsi əksini tapıb. Üç saat davam edən imtahanın gedişinə imtahan-nəzarət komissiyası tərəfindən nəzarət olunub. İmtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanması kompüterlə, klinik hissəsi üzrə cavabların qiymətləndirilməsi isə mütəxəssislərin iştirakı ilə aparılıb.

İmtahanlarda 156 orta tibb işçisi iştirak edib. İmtahan suallarının test hissəsi üzrə 40 və ya daha çox, klinik tapşırıq hissəsi üzrə isə 16 və ya daha çox bal toplamış 94 orta tibb işçisi sertifikasiyadan keçərək 5 il müddətində müvafiq ixtisas üzrə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edib. 62 nəfər isə zəruri həddi keçə bilməyib. Sertifikatlaşdırma imtahanlarında uğurlu nəticə əldə edə bilməyən orta tibb işçiləri ixtisaslarına uyğun hazırlıq kurslarına cəlb olunacaqlar. Onlar altı ay müddətində iş yerləri saxlanılmaqla müvafiq peşə hazırlığı keçəcək, sonra yenidən sertifikatlaşdırma imtahanlarında iştirak edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada keçirilən iməciliklər zamanı qəbiristanlıqlarda səliqə-sahman yaradılıb

*Muxtar respublika ərazisindəki qəbiristanlıqlarda məzarların ətrafına çəkilmiş dəmir çəpərlərin sökülməsi ictimaiyyət tərəfindən razılıqla qarşılanıb. Bununla bağlı qəzetimizin 17 fevral 2017-ci il tarixli nömrəsində məlumat verdiyimizdən bu barədə ətraflı danışmağa ehtiyac görmürük. Oxucular da təsdiq edər ki, dəmir çəpərlər qəbiristanlıqlarda uyuyan mərhumların hansı "sinfə" məxsus olduğunu uzaqdan bildirirdi. Açıq deyək ki, bundan daxilən narahat olan insanlar da az deyildi. Həyata keçirilən tədbirlər buna son qoydu.*



Bu tədbirlərin davamı olaraq belə ünvanlarda kütləvi təmizlik işlərinin aparılması da təqdirəlayiqdir. Düzdür, hər bir məzar sahibinin vaxtı olduqca buraya gəlməsi, səliqə-sahman yaratması fərdi şəkildə indiyə qədər də olub. Ancaq bu da var ki, yaşadığı yerdən köçüb gedən insanların yaxınlarının məzarları sahibsiz qaldığından həmin məzarlar baxımsız hala düşürdü. Ancaq təmizlik işlərinin kütləvi şəkildə aparılması bu problemi həll edib.

Ötən şənbə günü muxtar respublika sakinləri belə ünvanlarda iməciliklər keçiriblər. Bununla bağlı olaraq iməciliklər keçirilən bir neçə ünvana üz tutduq.

İlk getdiyimiz yer Şərur şəhər qəbiristanlığı oldu. Burada görüşdüyümüz rayon ağsaqqalı Fəxrəddin Kərimov dedi ki, Azərbaycan xalqı hər zaman adət-ənənələri, milli-mənəvi dəyərləri ilə seçilən xalq olub. Bu dəyərlər əsrlərin sınağından üzüağ çıxaraq müasir dövrümüzədək yaşadığımız həyat tərzinin bir hissəsinə çevrilib. Dəyərlərimizi yaşadan isə bizə böyüklərimizdən miras qalmış əxlaqımız, soy-kökümüzə bağlılığımız və bu ənənələrimizin dini dəyərlərimizlə bir-birini tamamlamasıdır. Ancaq etiraf edək ki, bəzən dəyərlərimizi mənəvi aşınmalara məruz qoyan da bizik. Halbuki hərtərəfli inkişaf milli və mənəvi sistem üzərində qurularkən daha sağlam olur. Əks halda, bunun mənfi təsiri də elə ilk olaraq bizə – cəmiyyətə dəyir. Söhbət son illərdə Azərbaycan cəmiyyətində əsas müzakirə mövzusuna çevrilmiş israfçılıqdan, bu israfçılığın insanlara vurduğu psixoloji zərbələrdən gedir. Halbuki istənilən cəmiyyətdə israfçılıq heç kim tərəfindən müsbət xarakterizə olunmur.

Müsahibim onu da vurğuladı ki, bu gün Naxçıvanın hər yerində yas məclisləri üçün hərtərəfli şəraiti olan binaların tikilməsi, İslamın olduğu kimi təbliğ edilməsi insanlar tərəfindən minnətdarlıq hissləri ilə qarşılanır. Elə qəbiristanlıqlardakı çəpərlərin sökülməsindən sonra təmizlik işlərinin aparılması da eləcə... Çox xeyirxah və lazımlı işdir. Bu ünvanları digər yerlərdə yaşayan qohum-əqrəba da ziyarət edir. Onlar bizim öz mərhumlarımıza necə münasibət göstərməyimizi burada görürlər.

İməcilik günü əməkdaşlarımız digər ünvanlarda da olublar. Sədərək kənd qəbiristanlığında keçirilən iməcilikdə müəllim Məhərrəm Seyidov bildirib ki, dünənə qədər qəbiristanlıqlarımızda məzarların ətraflarına çəkilmiş dəmir çəpərlər bir-birinə boy verirdi. Normal hal olmasa da, reallıq belə idi. Qəbiristanlıqlara baxanda insanların maddiyyat və mənəviyyatındakı çatışmazlıqları görmək olurdu. Əksəriyyət daha çox yeri zəbt edən qəbirətrafı dəmir çəpərlərə üstünlük verirdi. Bəziləri isə qəbirləri qardan, yağışdan qorumaq üçün üzərlərinə dam örtükləri də düzəltdirirdi. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 noyabr tarixli Qərarına əsasən mövcud olan məzarlıqlarda dəfn zamanı qəbirlərin milli-dini dəyərlərin tələblərinə və qaydalara uyğun ölçüdə salınması nəzərdə tutulub. Hər bir qəbir üçün ölçü qaydaları müəyyən olunub. Qaydalara görə hər bir məzarın eni 1 metr 40 santimetr, uzunluğu isə 2 metr 20 santimetr olaraq müəyyənləşdirilib.

Bu, dövlətin müəyyən etdiyi ölçülərdir və heç kim də bunu yaddan çıxarmamalıdır. Ancaq elə məsələlər var ki, bunun həlli bizdən asılıdır. Məsələn, məzarlıqların təmiz saxlanılması. Bu tədbiri ürəkdən alqışlayıram. Biz bugünkü iməcilikdə qəbiristanlıqda səliqə-sahman yaratdıq. Bu işləri müntəzəm olaraq davam etdirəcəyik.

Ordubad rayon sakini Malik Əhmədov əməkdaşımızla söhbətdə deyib ki, belə tədbirlərin həyata keçirilməsi çox zəruri və təqdirəlayiqdir. Qəbiristanlıqlar təmiz saxlanılmalıdır. Burda uyuyanlar öz yaxınlarımızdır. Elə etməliyik ki, onları ziyarət etməyə gələrkən, məzarlara baxarkən gördüyümüz mənzərədən xəcalət hissi keçirməyək. Belə bir tədbirin həyata keçirilməsini alqışlayıram.

Culfa rayon sakini Savalan Qənbərovun sözlərinə görə qəbiristanlıqlarda belə bir xeyirxah işin görülməsi dinimizə uyğundur. Təmizlik həm də hər bir insanın xarakterini göstərən keyfiyyətdir. Bu keyfiyyət onun yaşadığı həyatda bütün sahələrdə özünü göstərməlidir. Sevindirici haldır ki, artıq muxtar respublikamızın bütün bölgələrində bu işə başlanılıb və insanlar tərəfindən razılıqla qarşılanıb. Odur ki, hamı bu işdə fəallıq göstərir.

Naxçıvan şəhər sakini Hüseyn Dünyamalıyev dedi ki, naxçıvanlılar hər zaman öz dəyərlərinə sədaqətləri ilə seçiliblər. Bir zamanlar yas məclislərində də izafi xərclər baş alıb gedirdi, mərhum sahibləri məclisi harada və necə təşkil edəcəklərini saatlarla müzakirə edirdilər. Ancaq indi bu sahədə Naxçıvan nümunəvi bir regiona çevrilib. Elə bugünkü tədbir də bu istiqamətdə görülən işlərin davamıdır.

Son olaraq deyək ki, İslam dininin dəyərlərinə ehtiramla yanaşmaq hər birimizin borcudur. Ulu Tanrının yaratdıqları arasında insana verdiyi dəyər və ona hörmət səbəbi ilə qəbirləri qorumaq, təmizləmək dəfn və ziyarət əsnasında qəbirləri tapdalamamaq, üzərində oturmamaq tələb olunur. İnanırıq ki, muxtar respublikamızın sakinləri bundan sonra qəbiristanlıq ərazilərində təmizlik işlərinin aparılmasında, yaşıllıqların salınmasında, yeni ağacların əkilməsində fəallıq nümayiş etdirəcəklər. Ümumilikdə isə muxtar respublikamızda həyata keçirilən bu kimi tədbirlər insanları mənəvi saflığa, həmrəylik nümayiş etdirməyə çağırır. Digər tərəfdən isə qəbiristanlıqlarda görülən işlər bir il sonra Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı kimi təqdimatında mühüm rol oynayacaq. Bu isə həyata keçirilən tədbirlərin mahiyyətini daha da artırır. Bunu hər bir naxçıvanlı yaxşı dərk edir. Dediklərimizin ifadəsidir ki, şənbə günü muxtar respublikamızın bütün qəbiristanlıqlarında iməciliyə çıxan sakinlər fəallıq göstərib, məzarlıqlarda səliqə-sahman yaradıblar.

**✍ Muxtar MƏMMƏDOV**

## Karate-do üzrə yoldaşlıq görüşü keçirilib



***Culfa şəhər 3 nömrəli tam orta məktəbin idman zalında "Naxçıvan", "Ordubad" və "Culfa" komandaları arasında karate-do üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək yarış barədə idmançıları məlumatlandırıb. Sonra Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini, yarışın baş hakimi Nəriman Quliyev idmançılara yarışın qaydaları haqqında məlumat verib və uğurlar arzulayıb.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi və WKF üslubunda olimpiya sistemi üzrə keçirilən yarışda 5 yaş qrupunda oğlanlar, 3 yaş qrupunda isə qızlar olmaqla, 80-ə yaxın idmançı mübarizə aparıb.

Yarışın yekununa əsasən, oğlanlar arasında 6-7 yaş qrupunda Yaqub Qənbərov (Culfa), 8-9 yaş qrupunda Seyran Quluzadə (Naxçıvan), 10-11 yaş qrupunda Samir İbrahimli (Naxçıvan), 12-13 yaş qrupunda Vüsal Seyidov (Naxçıvan), 14-15 yaş qrupunda İmran Həsənov (Naxçıvan), qızlar arasında isə 8-9 yaş qrupunda Aminə Novruzzadə (Naxçıvan), 10-11 yaş qrupunda Duyğu Əhmədova (Culfa), 12-13 yaş qrupunda Səmra Məmmədli (Naxçıvan) həmyaşıdları arasında birinci yerlərə layiq görülüblər. Komanda hesabında isə "Naxçıvan" komandası qalib adını qazanıb. Digər iki pillədə "Culfa" və "Ordubad" komandaları qərarlaşıblar.

Sonda hər yaş qrupunda yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Kikboksinq üzrə birincilik başa çatıb

5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində yeniyetmə və gənclər arasında kikboksinq üzrə açıq birincilik keçirilib.

Açıq birincilik Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il martın 5-i ölkəmizdə, o cümlədən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur.

Sonra Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev çıxış edərək yarış iştirakçılarına yarışın qaydaları haqqında məlumat verib və idmançılara uğurlar arzulayıb.

10 çəki dərəcəsində 80-ə yaxın idmançının iştirak etdiyi yarışda Uğur Əliyev, Şəmsəddin Əliyev, Raiq Rəcəbli, Səhəd Əsədov, İsmayıl Yaqubov, Elgün Baxışov, Həsən Kərimli, Fərman Rzayev, Pünhan Əliyev və Həsən Həsənov müvafiq olaraq 27, 33, 36, 42, 45, 48, 54, 57, 60 və 67 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılara Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının medal və hədiyyələri, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin isə diplomları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Heydər Əliyev adına Hərbi Liseyə

### *2017-2018-ci tədris ilində namizəd qəbulu qaydaları*

***Ümumi müddəalar:***

Təlim dili: Azərbaycan dili

Təhsil forması: əyani

Təhsil müddəti: 3 il

Yaş həddi: Cari ildə ümumtəhsil müəssisələrinin 8-ci sinfini bitirmiş, 15 sentyabr 2017-ci ilə qədər 14 yaşı tamam olan və 16 yaşı keçməyən oğlanlar qəbul edilirlər.

Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmaq istəyən namizədlər 1.04.2017-ci il tarixdən 10.05.2017-ci il tarixədək Hərbi Lisey rəisinin adına ərizə ilə müraciət etməlidirlər.

***Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:***

1. Şəxsən yazılmış tərcümeyi-hal – 1 nüsxə, çap edilmiş – 2 nüsxə
2. Oxuduğu sinfin 1-ci yarımilinin qiymət cədvəli
3. Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin surəti (notarius tərəfindən təsdiq olunmuş)
4. Sinif rəhbəri tərəfindən yazılmış və məktəb direktoru tərəfindən təsdiq edilmiş xasiyyətnamə
5. Evlər idarəsindən və ya müvafiq icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış
6. 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) – 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4,5x6 sm ölçüdə
7. Valideynlərin və ya onları əvəz edən şəxslərin dövlət notariusunda təsdiq olunmuş razılıq ərizələri
8. Burunətrafı boşluqların rentgenoqrafiyası
9. Sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ
10. Qanın ümumi analizi, qan qrupu və rezus-faktor
11. Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri
12. Qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri
13. Nəcisdə helmintlərin yumurtalarının müayinəsinə aid tibbi sənəd
14. Dizenteriya qrupuna aid müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə
15. Psixi Xəstəliklər, Ağciyər Xəstəlikləri dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar
16. Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar
17. Ambulator xəstənin tibbi kartı, (keçirilmiş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma № 27/U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibbi kartası – forma № 26/U).

Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin əsli namizəd tərəfindən şəxsən təqdim olunur.

***Hərbi Liseyə qəbul 2 mərhələdə keçirilir***

**1-ci mərhələdə** qəbul olmaq istəyən namizədlər Heydər Əliyev adına Hərbi Liseydə hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu vaxtı bildiriləcəkdir. Liseyə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır (buraxılış vərəqəsi veriləcək).

**2-ci mərhələdə** namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən müvafiq ixtisas qrupu üzrə test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanları aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır (ümumtəhsil müəssisələrinin 8-ci sinfi həcmində):

***Azərbaycan dili, riyaziyyat, fizika, kimya***

Heydər Əliyev adına Hərbi Liseyə namizədlərin qəbulu Dövlət İmtahan Mərkəzi tərəfindən təqdim olunmuş test imtahanlarının nəticələri haqqında siyahılar əsasında lisey rəisinin əmri ilə həyata keçirilir.

İmtahanın tarixi əlavə olaraq bildiriləcək.

Naxçıvan Muxtar Respublikasında yaşayan Heydər Əliyev adına Hərbi Liseyə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə və Hərbi Tibb Məktəbinə qəbul olmaq arzusunda olan namizədlər Heydər Əliyev adına Hərbi Liseyə müraciət etməlidirlər.

***Əlaqə telefonları: 544-00-15, 544-00-16, 544-00-17***

***İtmişdir***

Türkiyə vətəndaşı Arı Satılmış adına Naxçıvan Muxtar Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 188